# Azərbaycanda SEQ-in tətbiqi ilə bağlı seminar

## Bakı, 4 – 5 aprel 2018-ci il

## Yoixlama üzrə qrup işi

**Tapşırıq**

Aşağıda qeyd olunmuş strateji sənədlər üçün SEQ/ƏMTQ-in tələb edilib-edilmədiyini müəyyənləşdirin və qərarınızı əsaslandırın. Milli qanunvericiliyinizlə və BMT AİK-in SEQ protokolu ilə müəyyən edilmiş meyarlara istinad edin. Aşağıdakı sualları cavablandırın:

- Bu məlumat yoxlama üçün kifayət edirmi?
- Kifayət etmirsə, sizə hansı əlavə məlumat lazımdır?
- Siz hansı yoxlama meyarlarından/suallarından istifadə edirsiniz?

**Nümunələr**

***Nümunə 1: QIRMIZI TƏPƏ BƏLƏDİYYƏSİNİN MƏKAN PLANLAMASI ÜZRƏ DƏYİŞİKLİKLƏR***

Qirmızı Təpə Bələdiyyəsinin məkan planına edilən düzəliş prosesi bələdiyyə şurasına müraciət etmiş torpaq sahibləri qrupu tərəfindən başladılmışdır. Təklif olunan düzəliş daimi otlaq sahəsindan yaşayış sahəsinə qədər ümumilikdə 15.000 m2 sahəni əhatə edən torpaqdan funksional istifadəni dəyişir. Torpaq mülkiyyətçiləri öz yaşayış sahələrində 10 ailə üçün ev tikdirməyi planlaşdırırlar.

Sahə cənubdan bələdiyyə torpağı ilə, şərq və qərbdən kənd təsərrüfatı torpağı ilə, şimaldan isə meşə ilə əhatə olunub. Evləri əsas yolla birləşdirən və evləri elektrik şəbəkəsinə, kanalizasiya və su təchizatı sistemlərinə birləşdirən yol layihənin bir hissəsidir.

***Nümunə 2: MİLLİ ENERJİ STRATEGİYASI***

Enerji Nazirliyi milli enerji strategiyasını hazırlamağa başlayır. Strategiya ölkədə enerji prioritetlərini, yəni ilk növbədə, 2030-cu ilə qədər enerji qarışığı və daxili enerji tələbatını müəyyən edəcəkdir. Strategiya ölkədə hal-hazırda istifadə edilə biləcək bütün enerji mənbələrini əhatə edəcəkdir.

***Nümunə 3: ƏYALƏT MƏKAN PLANLAMASI ÜZRƏ DÜZƏLİŞLƏR***

Əyalət 2001-ci ildə qəbul edilmiş və artıq iki dəfə düzəliş edilmiş dairə məkan planına düzəlişlərin edilməsi barədə qərar qəbul etmişdir. Həmin düzəlişlərə aşağıdakı təkliflər daxildir:

- Yeni turist zonası (sahildə), o cümlədən akvapark və qolf meydançası
- Dəniz sənayesi üzrə yeni sahələr
- İki yeni iqtisadi zona (50 və 80 ha)

Turistlərin yaşam səviyyəsini yüksəltmək məqsədi ilə, məkan planında yeni otellərin və mehmanxanaların inşa ediləcəyi bir sıra bələdiyyələr müəyyən edilməlidir.